# Vətənə sipər oğullar

**Qobustan rayonunda gənclərin həqiqi hərbi xidmətə yola salınması son illərdə əsl bayram təntənələrini xatırladır. Başqa bölgələrimizdə olduğu kimi, Şirvanın bu qədim yurdunda da Vətənə xidmətə yola salınan hər bir gənci valideynləri ilə yanaşı, qohum-əqrəbası, yaxın adamları, dostları müşayiət edirlər. Mərdlik, şücaət və kişilik məktəbinə—hərbi xidmətə yola düşən gənclərimizin üzündəki təbəssüm, çöhrələrində xoş ovqat sanki bütün mərasim iştirakçılarına sirayət etmişdi.**

—Müstəqilliyinə nail olmuş və onu fədakarlıqla qoruyan ölkəmizin parlaq gələcəyi dünya standartlarına uyğun şəkildə formalaşan ordumuzdan, onun döyüş qabiliyyətindən, Vətənin hər bir qarış torpağını canından belə əziz tutan igid oğlanlarımızdan asılıdır, - çıxışına bu sözlərlə başlayan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan rayon şöbəsinin rəisi, polkovnik-leytenant **Mərdan Nəhmətov** mərasim iştirakçılarını səmimi salamladı və sözünə davam edərək vurğuladı ki, vaxtilə ulu öndərimiz, müasir Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev böyük müdrikliklə, uzaqgörənliklə deyirdi: “Bizim hamımızın bir Vətəni var. Bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir yerdə vurmalıdır”.

Əziz gənclər! Bu gün hər biriniz yaxşı başa düşürsünüz ki, torpaqlarımızın bir hissəsi mənfur düşmənin nəzarəti altındadır. Bu isə o deməkdir ki, biz bir an belə sayıqlığımızı itirməməli, hər zaman Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmrinə hazır olmalıyıq.

Mərdlik, cəsarət, kişilik yolunda ilk addımlarını atmağa başlayan Vətən oğulları! Azərbaycan adlı bir müqəddəs məmləkətin mübariz keşikçiləri! Sizin hər biriniz yaxşı başa düşməlidir ki, Vətənimizin bir qarış torpağının belə düşmən tapdağında qalmaması üçün silahlı qüvvələrimizin şəxsi heyəti əlindən gələni əsirgəmir. Bu gün ordumuzun ən müasir tələblər səviyyəsində qurulmasından, döyüş əzminin günbəgün yüksəldilməsindən qürur duyuruq.

Ordumuzun dünyanın ən qabaqcıl ordusu kimi formalaşması üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən müntəzəm olaraq böyük diqqət və qayğı göstərilir. Fərəhli haldır ki, məhz Ali Baş Komandanın gərgin əməyi nəticəsində bu gün Azərbaycan ordusu ən çətin döyüş tapşırıqlarını belə cəsarətlə yerinə yetirməyə qadir ordudur.

Ordu quruculuğu barədə danışarkən hörmətli Prezidentimiz demişdir: “2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq. Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni növbəti illərdə ancaq bu proses sürətlə gedəcək”.

Daha sonra şöbənin rəisi qeyd etdi ki, sizi ordu sıralarına yola salmağa gələnlər arasında keçmiş zabitlər, müharibə və əmək veteranları, ziyalılar, bir sözlə, müxtəlif sahələrdə çalışan, doğma Qobustanın adını həmişə şərəflə tutmuş insanlar vardır. Böyük məmuniyyətlə onları dinləyək.

Sonra söz valideyn Fədai Balaqardaşova verildi. O qeyd etdi ki, bu gün Vətənimizin hər bir guşəsində gənclərin həqiqi hərbi xidmətə yolasalma mərasimləri keçirilir. Bu, sözün həqiqi mənasında əsl bayramdır. Hər bir valideyn bu günü illərlə gözləyir. Bu gün mənim də bir valideyn kimi sevincimin həddi-hüdudu yoxdur. Oğlumu ordu sıralarına yola salmaq, onu Vətəni qorumağa göndərmək bir ata kimi fərəhimi birə-beş artırır. Mən yaxşı başa düşürəm ki, Vətən oğulları ilə qorunanda Vətən olur.

Əziz balalar! Yolunuz açıq, üzünüz ağ, canınız sağlam olsun!

—Bu gün azərbaycan hər bir azərbaycanlının qürür mənbəyidir—deyə sözə başlayan veteran Afdandil



Şikarovun sözləri alqışlarla qarşılandı. Kimliyindən, yaşından, tutduğu mövqedən asılı olmayaraq hamı bu gün ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq-abadlıq tədbirlərini ürəkdən bəyənir, ölkəmizi dünyada tanıdan möhtərəm Prezidentimiz cənab İlham Əliyevlə həmrəy olduqlarını nümayiş etdirirlər.

Elə götürək yaşadığımız Qobustan rayonunu. Vaxtilə susuz, ilan mələyən bu rayonda ölkə başçısının gündəlik diqqət və qayğısı ilə indi həyat tam başqadır. Bu firavanlıq, gözəllik ölkəmizin bütün guşələrində mövcuddur. Bütün Azərbaycan gəncliyi bu uğurları bəyənir və dəstəkləyir.

Sonra hərbi xidmətə yola düşən gənclər adından Mirbaba Musayev çıxış etdi. O vurğuladı ki, Vətənə layiqli oğul olmaq, onun yolunda lazım gələrsə, candan keçməyə belə bütün gənclərimiz hər an hazırdır.

Daha sonra Qobustandan “N” saylı hərbi hissəyə yola düşən maşın karvanını şən musiqi sədaları müşayiət etdi.

**İlham PƏNAHOV,**
**“Respublika”.**